TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU
«ELM VƏ TƏHSİL MƏRKƏZİ»
TƏFƏKKÜR UNİVERSİTETİ

# İİ-01.02.01 «MÜHASİBAT UÇOTU VƏ AUDİT» İXTİSASI ÜZRƏ ALİ TƏDRİS MÜƏSSİSƏLƏRİ ÜÇÜN MÜHASİBAT UÇOTU NƏZƏRİYYƏSİ VƏ AUDİTİN ƏSASLARI KURSUNUN

# PROQRAMI

BAKI-2002

**AZƏRBAYÇAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**TƏHSİL PROBLEMLƏRİ İINSTİTUTU**
**"ELM VƏ TƏHSİL MƏRKƏZİ"**
**TƏFƏKKÜR UNİVERSİTETİ**

*******************************************

**İQTİSADİYYAT-İDARƏETMƏ KAFEDRASI**

# İİ-01.02.01 "MÜHASİBAT UÇOTU VƏ AUDİT" İXTİSASI ÜZRƏ ALİ TƏDRİS MÜƏSSİSƏLƏRİ ÜÇÜN MÜHASİBAT UÇOTU NƏZƏRİYYƏSİ VƏ AUDİTİN ƏSASLARI KURSUNUN

# PROQRAMI

Azərbaycan Respublikası Təhsil nazirinin 11iyul 2002-ci il tarixli 759№-li əmri ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurasının "İqtisadiyyat və idarəetmə" bölməsinin 20.05.2002-ci il tarixli 13 saylı protokoluna əsasən çap edilir.

**BAKI-2002**

*******************************************

**İİ-01.02.01. “MÜHASİBAT UÇOTU VƏ AUDİT” İXTİSASI ÜZRƏ ALİ TƏDRİS MÜƏSSİSƏLƏRİ ÜÇÜN NƏZƏRDƏ TUTULUB**

***PROQRAMI TƏRTİB ETMİŞDİR:*** Təfəkkür Universitetinin Iqtisadiyyat və idarəetmə kafedrasinin baş müəllimi, iqtisad elmləri namizədi **E.M.Hacızadə**

***REDAKTOR:*** Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyatın “Dövlət tənzimlənməsi” kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor **H.Allahverdiyev**

***PROQRAMA RƏY VERMİŞLƏR:*** Təfəkkür Universitetinin rektoru, Azərbaycan Dövlət Neft Akademiyasının kafedra müdiri, iqtisad elmləri doktoru **M.A.Atakişiyev**, Azərbaycan Dövlət İqtisad Universitetinin “Mühasibat uçotu və audit” kafedrasının müdiri, iqtisad elmləri namizədi, dosent **S.M.Səbzəliyev**

# MÜQƏDDİMƏ

”Mühasibat uçotu və audit” ixtisası İİ-01.03.00 üzrə təhsil alan ali məktəb tələbələri üçün nəzərdə tutulan “Mühasibat uçotunun nəzəriyyəsi və auditin əsasları” kursu əsas ixtisas fənlərindən biri kimi tədris olunan mühasibat uçotu və audit təyinatlı fənlərin nəzəri əsası hesab olunur.

Müasir bazar iqtisadiyyatı şəraitində müəssisənin iqtisadi fəaliyyətinin xarakterinin, əmək nəticələrini forma və metodlarının dəyişməsi mühasibat uçotunun və auditin təşkili sahəsində yeni tələblər qoyur.

“Mühasibat uçotunun nəzəriyyəsi və auditin əsasları” nümunəvi proqramı “Mühasibat uçotunun nəzəriyyəsi” və “Auditin əsasları” adlı iki bölmədən ibarət olaraq bazar iqtisadiyyatı sferasında formalaşan yeni mülkiyyət, təsərrüfatçılıq formalarının, idarəetmə mexanizmlərinin təsbit olunmuş qanunverijiliyə uyğun olaraq uçot və nəzarət sisteminin təşkili sahəsində tələbələrə bilgi verməyi nəzərdə tutur. Bu məqsədləri ifadə edərək tələbələr:

- ❖ təsərrüfat uçotu və onun növləri, uçot formaları və registrləri haqqında;
- ❖ auditin mahiyyəti və təyinatı haqqında

**Təsəvvürlərə malik olmalı**

- mühasibat uçotunun predmet və metodunu;
- audit fəaliyyətinin məqsəd və məramını

**Bilməlidirlər**

- müxtəlif tipli təsərrüfat əməliyyatlarının sənədləşməsinin aparılmasını;
- iqtisadi, hüquqi-normativ informasiyadan, arayış materiallarından öz peşəkar fəaliyyətində istifadə etməyi;
- auditin proqramlaşdırılması və aktlaşdırılması prosseslərini.

**Bacarmalıdırlar**

Proqram materialının öyrənilməsi tələbələrdə yeni iqtisadi təfəkkürün formalaşmasına xidmət etməlidir. Tam bir tədris semestrini əhatə edən nümunəvi proqram 51 saat həjmində müvafiq auditoriya məşğələlərinə hesablanmışdır. Giriş hissəyə 2 saat, «Mühasibat uçotu nəzəriyyəsi»nin öyrənilməsinə 34 saat, «Auditin əsasları»nın tədrisinə 15 saat ayırmaqla cəmi mühazirələrə 34 saat, praktiki məşğələlərə 17 saat vaxt bölümü verilir. Kursun tədrisinin hesabat nəticəsi kimi imtahan nəzərdə tutulur.

«Mühasibat uçotunun nəzəriyyəsi və auditin əsasları» fənni tələbələr tərəfindən «İqtisadi nəzəriyyə» «Biznesin

əsasları», «Mikroiqtisadiyyat», «Hüquq», «Müəssisənin iqtisadiyyatı», kimi tədris fənlərinin öyrənilməsindən aldığı biliklər səriştə və bacarıqları bazasına əsaslanır.

«Mühasibat uçotunun nəzəriyyəsi və auditin əsasları» kursunun tətbiqi xarakterliyinə istinadən nəzəri və praktiki müstəvidə ahəngləşən terminoloji vahidliyə riayət olunmanı saxlamaqla mövjud dövləti standartlardan, mühasibat uçotunun və auditin beynəlxalq prinsiplərindən məzmunlu və dolğun istifadə edilməli və tələbələrə öyrənilən materialların anlaşıqlı şəkildə izahı verilməlidir. Bu baxımdan müəssisənin təsərrüfat fəaliyyətini nizamlayan normativ sənədlər, hüquqi aktlar, metodik və arayış materiallarından, hesablama texnikasından, tədris prosesini optimallaşdıran digər texniki vasitələrindən, informasiyon texnologiyalardan istifadə etmək, təsərrüfat situasiyaları üzrə mükamilələr aparmaq, mühasibat uçotunun aktual problemlərinin araşdırılması məqsədi ilə disskusiyalar keçirmək, müəssisə və təşkilatlara ekskursiyalar təşkil etmək əhəmiyyətlidir.

Uçot informasiyalarının emal texnologiyasını, sənəd dövriyyəsi qaydalarını mənimsəmək, tələbələrin yaradıjılıq aktivliyini qaldırmaq məqsədi ilə uçot, hesabat problemləri və audit yoxlanışı proqramının hazırlanması istiqamətində sərbəst işləmə imkanları yaratmaq, mərhələ xarakterli yazılı nəzarət-yoxlama işləri keçirmək, testlər aparmaq tövsiyyə olunur.

Proqramda nəzərdə tutulan praktiki məşğələlərin tematikası tövsiyyə xarakteri daşıyaraq tədris prosesin gedişində empirik və konyuktur məqamları nəzərə alaraq müəyyən dəyişikliklərə məruz qalması istisna edilmir.

Təhsilin qiyabi və distant forması üzrə tədris prosesində mühazirə proqramının bütün mövzuları daxil

edilməlidir. İstehsalatdan ayrılmadan təhsil alan tələbələr nəzarət, kurs və buraxılış işi hazırlayan zaman mümkün qədər öz iş yerlərinin materiallarından istifadə etməlidirlər.

Tədris fənninin hər bir bölümündə müvafiq bilik və səriştənin formalaşmasından irəli gələn tələblər əksini tapmışdır.

## Mühasibat uçotunun nəzəriyyəsi və auditin əsasları kursunun təxmini tematik planı

| Bölmələrin və mövzuların adları | | Təhsilin əyani formasında auditoriya saatlarının miqdarı | | |
|---|---|---|---|---|
| | | Mühazirə | Praktiki məşğələlər | Cəmi |
| *Mövzu* | **Giriş** | **2** | **-** | **2** |
| **I Bölmə** | | | | |
| **Mühasibat uçotunun nəzəriyyəsi** | | *22* | *12* | *34* |
| ***1.1*** | Təsərrüfat uçotu, onun mahiyyəti və əhəmiyyəti | *2* | *2* | *4* |
| ***1.2*** | Mühasibat uçotunun predmeti və metodu | *4* | *2* | *6* |
| ***1.3*** | Mühasibat balansı | *2* | - | *2* |
| ***1.4*** | Mühasibat uçotu hesabları və ikili yazılış | *2* | *2* | *4* |
| ***1.5*** | Əsas təsərrüfat proseslərinin uçotunun prinsipləri | *4* | *2* | *6* |
| ***1.6*** | Sənədləşmə və inventarizasiya | *2* | - | *2* |
| ***1.7*** | Qiymət və kalkulyasiya | *2* | *2* | *4* |
| ***1.8*** | Uçot informasiyalarının emalı texnologiyası | *2* | - | *2* |
| ***1.9*** | Mühasibat hesabatları | *2* | *2* | *4* |
| **II Bölmə** | | | | |
| **Auditin əsasları** | | *10* | *5* | *15* |
| ***1.10*** | Auditin mahiyyəti və əhəmiyyəti | *2* | - | *2* |
| ***1.11*** | Audit fəaliyyətinin tənzimlənməsi.Audit standartları və beynəlxalq normativlər | *2* | *2* | *4* |
| ***1.12*** | Auditin növləri və onların texnoloji reallaşdırılması | *2* | - | *2* |
| ***1.13*** | Auditin planlaşdırılması və yoxlanışın metodik əsasları | *2* | *2* | *4* |
| ***1.14*** | Yoxlanış aktının tərtibi | *2* | *1* | *3* |
| ***Cəmi*** | | ***34*** | ***17*** | ***51*** |

# Giriş

«Mühasibat uçotunun nəzəriyyəsi və auditin əsasları» tədris fənninin mahiyyəti, konseptual əsasları, məqsədləri, nəzəriyyənin verifikasiyası, müəssisənin təsərrüfat həyatında, iqtisadiyyatın təşkilində əhəmiyyəti haqqında məlumatlar verilir. Onun elmi fəlsəfəsi və tədqiqat metodologiyası, iqtisad yönümlü və geniş diapazonda hamılıqla digər fənlərlə rabitəsi, bazar iqtisadiyyatının nəzəri və praktiki sferasında yeri və rolu göstərilir. Tələbələrin mütəxəssis kimi formalaşmasında mühasibat uçotu və audit haqqında biliklərin toplanmasının zəruriliyi əsaslandırılır, onlara öyrənilən fənnin əsas peşə təhsilli ixtisas proqramının mənimsənilməsində əhəmiyyəti vurğulanır.

# I Bölmə

# Mühasibat üçotunun nəzəriyyəsi

## Mövzu 1.1
## Təsərrüfat uçotu, onun mahiyyət və əhəmiyyəti

Təsərrüfat uçotu anlayışı. Uçotunun tarixi inkişaf mərhələləri. İkili yazılış sisteminin yaranması. Mühasibat uçotunun prinsip axtarışları. Sənayeləşmə epoxasında və texniki inqilablar şəraitində fundamental uçotun formalaşması. Mühasibat uçotuna yeni baxış, təşkilati hüquqi strukturunun inkişafı. Mühasibat uçotu sosial

hadisə kimi. Mühasibat uçotu və cəmiyyət. Mühsibat uçotu elmi məzmunda. Bazar iqtisadiyyatı şəraitdə uçotun mahiyyəti. Operativ, statistik və mühasibat uçotu. Müxtəlif uçot növləri arasında qarşılıqlı rabitə və fərqli aspektlər. Uçotda tətbiq edilən ölçülər. Mühasibat uçotunun əsas tələbləri və paradiqması. Normativ və pozitiv mühasibat uçotu. Təsərrüfat uçotunun növləri. Uçot və hesabatın metodoloji vahidliyi.

## Mövzu 1.2
## Mühasibat uçotunun predmeti və metodu

Mühasibat uçotunun obyekti: təsərrüfat prosesləri, müəssisənin təsərrüfat vasitələri, təssərüfat vasitələrinin tərkibi və yaranma mənbəyinin təsnifatı. Mühasibat uçotunun aparılması metodları və onların xarakteristikası. Mühasibat uçotunun predmeti. Təsərrüfat əməliyyatları və onların təzahür formaları. Uçot siyasəti anlayışı və onun formalaşdırılması. Təşkilatın uçot siyasəti və mühasibat uçotunun təşkilində seçim qaydaları. Yeni mühasibatlığın xüsusiyyətləri.

Azərbaycan Respublikasında mühasibat uçotunun təşkili prinsipləri və tələb olunan standartlar.Mühasibat standartlarının harmonikləşdirilməsi. Mühasibat uçotunun təşkilinin nizamlanması. «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanunu. Tənzimləyici normativ-hüquqi aktlar.

## Mövzu 1.3
## Mühasibat balansı

Mühasibat balansı onun təyinatı, tərkibi, strukturu və hesabatlar sistemində yeri. Mühasibat balansının aktiv, passiv və struktur maddələrinin təsnifatı və mahiyyəti. Təsərrüfat əməliyyatlarının mühasibat balansının dəyişkənliyinə təsiri. Baş uçot kitabının aparılması və balansın tərtib edilmə qaydası.

## Mövzu 1.4
## Mühasibat uçotu hesabları və ikili yazılış

Mühasibat hesabları onların təyinatı və quruluşu. Aktiv, passiv və aktiv-passiv hesablar. Sintetik, analitik uçot hesabları. Sub və balansarxası hesablar. Mühasibat hesablarının qarşılıqlı əlaqəsi. Saldo, aktiv və passiv hesabların dövriyyəsi. İkili yazılış anlayışı. Mühasibat qeydiyyatları. Mühasibat müxabirləşməsi. Sadə və mürəkkəb müxabirləşmələr. Müxbir hesablar anlayışı. Dövriyyə cədvəlləri.

Mühasibat uçotunun hesablar planı: iqtisadi mahiyyəti və təyinatı üzrə struktur təsnifatı. Mühasibat hesabları ilə balans arasında əlaqə.

## Mövzu 1.5
## Əsas təsərrüfat proseslərinin uçotunun prinsipləri

Təchizat prosesi uçotu anlayışı. Faktiki alınmış material qiymətlilərinin maya dəyəri. Nəqliyyat-tədarük xərjləri. İstehsalat prosesi uçotu anlayışı. İstehsal xərjlərinin təsnifatı. Buraxılış məhsulunun faktiki maya dəyəri və bitməmiş istehsalın xarakteristikası. Satış anlayışı və onun uçotu. Məhsul satışının mühasibat hesablarında uçotu və maliyyə nəticələrinin təyinatı. Əsas təsərrüfat prosesləri təjhizat, istehsalat və satışın uçot sxemi. Əsas təsərrüfat proseslərinin mühasibat yazılışları.

## Mövzu 1.6
## Sənədləşmə və inventarizasiya

Mühasibat sənədlərinin əhəmiyyəti. Mühasibat sənədlərinin tərtibatı. Sənədlərin təsnifatı, mahiyyəti və təsərrüfata nəzarət edilməsində rolu. Sənədlərin rəsmiləşdirilməsi qaydaları. Sənəd standartları və onların rekvizitləri.

İnventarlaşma anlayışı. Əmlakın mühafizəsində inventarizasiyanın əhəmiyyəti. İnvetarlaşmanın aparılması qaydaları və onların mühasibat uçotunda əks etdirilməsi. Sənədlərin inventarizasiya nəticələri üzrə tərtibi. Jari və daimi arxivin təşkili.

## Mövzu 1.7
## Qiymət və kalkulyasiya

Bazar iqtisadiyyatında qiymət və onun formalaşması prinsipləri. Uçot obyektləri və komponentlərinin qiymətləndirilməsi. Qiymətin struktur elementləri və növləri.

Qiymət dəyişkənliyinə alternativ yanaşmalar. Mühasibat uçotunun qiymət dəyişkənlikləri şəraitində funksiyaları.

Kalkulyasiya obyektləri. İstehsal xərjlərinin və maya dəyərinin uçotunun xüsusiyyətləri və təşkilin əsas prinsipləri. Əlamətlərə görə xərjlərinin təsnifatı. İstehsal xərjlərinin və maya dəyərinin uçot metodları.

## Mövzu 1.8
## Uçot informasiyalarının emalı texnalogiyası

Uçot registrlərin mahiyyəti. Uçot registrlərinin təsnifatı və onların aparılması qaydaları. Xronoloji və sistematik uçot registrləri. Yalnışlıqların, səhflərin düzəltmə qaydaları. Korrektə. «qırmızı sterno» və əlavə yazlış üsullu düzəltmə növləri. Uçot registrlərində səhvlərin düzəlişi üzrə arayışın tərtibi.

Mühasibat uçotunun əsas formaları və onların təkmilləşdirilməsi. Definitiv, memorial order, jurnal order, perfokat və çevik əməliyyat yönümli formaları.

Uçot informasiyalarının keyfiyyət xarakteristikası. Mühasibat sənədlərinin və sənəd dövriyyəsinin avtomatlaşdırılması, kompyüter proqram və texnolgiyalarında işlənməsi.

## Mövzu 1.9
## Mühasibat hesabatları

Mühasibat hesabatların formaları. Hesabat blankların oxunuş və tərtib qaydaları. Mühasibat hesabatlarının informatik əhəmiyyəti. Hesabatların tərtibi üzrə normativ sənədlər. İjmal mühasibat hesabatları. Törəmə təşkilatların mühasibat hesabatlarının konsolidasiyası. Mühasibat hesabatların təsdiqi və baxılma qaydaları.

# II Bölmə

# Auditin əsasları

## Mövzu 1.10
## Auditin mahiyyəti və əhəmiyyəti

Auditin mahiyyəti, onun yaranması zərurətləri və aparılmasının əhəmiyyəti. Mühasibat uçotunun informasiya istifadəçiləri. Auditin məqsəd və vəzifələri. Auditin prinsipləri və postulatları. Peşəkar davranış və auditin etik normaları. Audit təsisatları. Auditor xidmətlərinin növləri. Maliyyə fəaliyyətinin auditor yoxlanışı: yoxlanışın məqsəd və metodu. Təsərrüfat fəaliyyəti nəticələrinin və mühasibat hesabatlarının təhlili. Təşkilatın maliyyə və ödənişqabiliyyətliliyinin qiymətləndirilməsi. Vergi və huquqi məsələlər üzrə məsləhətləşmələr.

## Mövzu 1.11
## Audit fəaliyyətinin tənzimlənməsi. Audit standartları və beynəlxalq normativləri

Auditor fəaliyyətini tənzimləyən normativ aktlar. Auditdə sahibkarlıq fəaliyyətinin əsas hüquqi formaları. Attestasiya və lisenziyalaşdırma. Auditin subyektləri. Auditor yoxlanışlarının məjburilik meyarları sistemi. Dövlət orqanlarının təqdimatı əsasında yoxlanış və ekspertiza. Auditorun və ekspertin hüqüq və vəzifələri. Auditor və sifarişçinin hüqüqi və inzibati məsuliyyəti.

Audit standartları anlayışı. Audit prosedurlarının standartlaşdırılması. Milli, beynəlxalq və firmadaxili audit standartları. Universial audit proqramlarından istifadə.

## Mövzu 1.12
## Auditin növləri və onların texnoloji reallaşdırılması

Auditin növləri. Auditorlar palatası və onun tənzimləyiji funksiyaları. Xariji audit. Daxili audit və onun məqsədi. Dövlət auditi. Hesablama palatası. Beynəlxalq audit təsisatları. Audit xidməti müqaviləsi. Auditin metodologiyası. Audit prosesinin təşkili.

## Mövzu 1.13
## Auditin planlaşdırılması və yoxlanışın metodik əsasları

Audit planlaşdırılması və onun əsas mərhələləri. Təşkilatın daxili nəzarət sisteminin qiymətləndirilməsi. Audit planı və proqramının hazırlanması prosedurası. Auditorlar qrupunun tərkibi və onların vəzifə bölgüsü. Ştatdan kənar ekspertlərin cəlb edilməsi imkanları.

İnformasiyaların yığım qaydaları və metodları. Auditor riskinin qiymətləndirilməsi. Auditorun iş sənədləri. İş həcminin müəyyənləşdirilməsi. Yalnışlıq və təhriflər anlayışı, səhvlə və maliyyə dələduzluğü. Proqram məhsullarının ekspertiziyası.

Audit sübutları və onların əldə edilməsi mexanizmləri. Analitik prosedurlar. İnventarizasiya. Təsdiqetmə. Personaldan izahatlar alma. Alternativ balansın tərtibinə hazırlıq. İnformasiyaların ümumiləşdirilməsi. Təhlil və tövsiyyələr. Daxili və xarici auditin keyfiyyətinə nəzarət.

## Mövzu 1.14
## Yoxlanış aktının tərtibi

Audit yekununun ümumiləşdirilməsinə hazırlıq. Auditor nəticələrinin növləri. Auditor rəyinin hazırlanması. Audit nəticələrini müşayiət edən sənədlər. Yoxlanışın konfedisiallığının təminatı. Aktın tərtibatı və təqdimetmə.

## SEMINAR MƏŞĞƏLƏLƏRIN NÜMUNƏVI PLANI

### *I Bölmə:* MÜHASIBAT UÇOTUNUN NƏZƏRIYYƏSI 

***Mövzu 1.1.*** Təsərrüfat uçotu, onun mahiyyət və əhəmiyyəti.
**(***Çıxışlar, mükalimə***)**
***Mövzu 1.2.*** Mühasibat uçotunun predmeti və metodu.
**(***Dəyirmi masa***)**
***Mövzu 1.4.*** Mühasibat uçotu hesabları və ikili yazılış.
*(Mühasibat müxabirləşmələrinin tərtibi, hesablar üzrə dövriyyə və qalıqların hesablanması.)*
***Mövzu 1.5.*** Əsas təsərrüfat proseslərinin uçotunun prinsipləri.
**(***Sintetik və analitik hesablar üzrə dövriyyə cədvəllərinin tərtibi.***)**
***Mövzu 1.7.*** Qiymət və kalkulyasiya.
**(***Mühasibat sənədlərinin rekvizitlərinin doldurulması, uçot yazlışlarında təhriflərin səhvlərin düzəlişi.***)**
***Mövzu 1.9.*** Mühasibat hesabatları.
**(***Mühasibat arayışlarının və hesabatların tərtibi.***)**

### *II Bölmə:* AUDITIN ƏSASLARI

***Mövzu 1.11.*** Audit fəaliyyətinin tənzimlənməsi. Audit standartları və beynəlxalq normativləri.
**(***Çıxışlar, mükalimə.***)**
***Mövzu 1.13.*** Auditin planlaşdırılması və yoxlanışın metodik əsasları.
**(***Auditin yoxlanışı proqramının hazırlanması.***)**
***Mövzu 1.14.*** Yoxlanış aktının tərtibi.
**(***Yoxlanış aktının tərtibi.***)**

* Qeyd: *Praktiki məşğələlər tövsiyyə olunan ədəbiyyat siyahısı əsasında aparılır.*

# Ədəbiyyat siyahısı

1.Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı. 1995.
2.Соколов Я.В. «Бухгалтерский учет: от истоков до наших дней». М.: Аудит. Юнити. 1996.
3.Кондраков Н.П. «Эккуантинг для менеджерев». М.: Дело. «Финансы и стстистика». 1998.
4.Кондраков Н.П. «Бухгалтерский учет». М.: Инфра-М. 2001.
5.Хендирксен Э.С., Бреда М.Ф. «Теория бухгалтерского учота». М.: «Финансы и стстистика». 1997.
6.Мэтюс М.Р., Перера М.Х. «Теория бухгалтерского учота». М.: Аудит ЮНИТИ-1999.
7.İsayev V.İ., Hacıyeva M.C. «Mühasibat uçotunun nəzəriyyəsi». /mühazirələr toplusu/ Bakı. 1994.
8.Майер Э. «Контроллинг как система мышления и управления». М.:Финансы и стстистика. 1993.
9.Лабынцев Н.Ж., Ковалева О.В. «Аудит: теория и практика». М.: ПРИОР. 1997.
10.Нидлз Б., Андерсон Х., Колдуэлл Д. «Принципы бухгалтерского учета». М.: Финансы и статистика. 1993.
11.Безруких П.С., Ивашкевич В.Б., Кондраков Н.П. и другие. «Бухгалтерский учет». М: «Бухгалтерский учет». 1996.
12.Бриттон Э., Ватерстон К. «Вводный курс по бухгалтерскому учету, аудиту и анализу». М.: «Финансы и статистика». 1998.
13.Андреев В., Атаманюк И., Кисилевич Т. «Практикум по аудиту». М.: «Финансы и статистика». 1999.
14.Дефлиз Ф., Дженик Г., Рейли В., Хирш М. «Аудит Монтгомери». М.: Инфра-М. 1997.
15.Терехов А. «Аудит». М.: «Финансы и статистика». 1998.



# MÜHASİBAT UÇOTU NƏZƏRİYYƏSİ VƏ AUDİTİN ƏSASLARI KURSUNUN

# PROQRAMI





Çapa imzalanıb 28.06.02 Fiz ç.v.1.5. Sifariş 41 . Sayı 100

ADİU-nin mətbəəsi